# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

11 (63) 23 iyul 2016-cı il

İctimai-siyasi qəzet


## Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililərin, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binasının Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılması haqqında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililərin, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binasının Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılması haqqında 2016-cı il iyunun 3-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 iyul 2016-cı il.

## İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Türkiyədə hərbi çevriliş cəhdini qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan xalqı və dövləti həmişə olduğu kimi Türkiyə xalqı və dövlətinin yanındadır. Prezident İlham Əliyev çevriliş cəhdinin qarşısının alınması nəticəsində həlak olanların ailə üzvlərinə və Türkiyə Prezidentinə başsağlığı vermiş, yaralılara şəfa arzulamışdır.

Azərbaycan Respublikası Prezidenti əminliyini ifadə etmişdir ki, Türkiyəni bundan sonra da heç bir qüvvə inkişaf və demokratiya yolundan döndərə bilməz.

Türkiyə Prezidenti Prezident İlham Əliyevin və Azərbaycan xalqının göstərdiyi qardaşlıq mövqeyini yüksək qiymətləndirərək bildirib ki, Türkiyə rəhbərliyi ölkədə vəziyyəti normallaşdırmaq üçün bütün lazımi tədbirləri görməkdədir.

## İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Bu yaxınlarda Varşavada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü və ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi ilə bağlı danışmaq fürsəti əldə etdiklərini məmnunluqla vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırımın ilk xarici səfərinin Azərbaycana etməsinin önəmini də qeyd etdi. Birgə layihələrin vaxtında icra olunmasına toxunan dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyinin və dostluğunun getdikcə daha da möhkəmləndiyini və artıq bir çox sınaqlardan çıxdığını qeyd edərək bildirdi ki, xalqlarımız və digər ölkələr bu birliyin və qardaşlığın möhkəm və sarsılmaz olduğunu görürlər. Ölkələrimizin bundan sonra da bir-birinin yanında olacağını deyən Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Azərbaycana bu səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi istiqamətində növbəti addım olacağına əminliyini ifadə etdi.



Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin NATO-nun Varşava Zirvə toplantısında iştirakının və keçirdiyi görüşlərin önəmini vurğuladı. Mövlud Çavuşoğlu Türkiyə ilə Rusiya arasında əlaqələrin düzəlməsində verdiyi güclü dəstəyə görə ölkəsi və xalqı adından Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Türkiyənin xarici işlər naziri son vaxtlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların yaxşı nəticələr verdiyini dedi və bu uğurların ölkəsində sevinclə qarşılandığını qeyd etdi. Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinin mükəmməl olduğunu vurğulayan Mövlud Çavuşoğlu xüsusilə son bir ildə əlaqələrimizin daha sıx şəkildə inkişaf etdiyini dedi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

## İlham Əliyev İsveçrənin maliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının maliyyə naziri Ulrix Maurerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İsveçrə Konfederasiyasının maliyyə naziri Ulrix Maurer ölkəmizə səfərinin məqsədi və keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. İsveçrə-Azərbaycan münasibətlərinə toxunan qonaq Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İsveçrədəki fəaliyyətinin önəmini qeyd edərək, ölkələrimiz arasında mövcud olan yaxşı əlaqələrin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.

Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında çox səmərəli ikitərəfli əlaqələrin mövcudluğunu vurğulayan Prezident İlham Əliyev bu əlaqələrin iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu dedi. Enerji sahəsində əməkdaşlığa toxunan dövlətimizin başçısı İsveçrə Konfederasiyasının TAP layihəsinə verdiyi dəstəyin önəmini qeyd etdi.

Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində aktiv fəaliyyətini yüksək qiymətləndirdi.

AZƏRBAYCAN VETERANI

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin veteranları Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında qonaq olublar

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin veteranları Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında oldular. Qonaqlar Respublika Veteranlar Təşkilatının iş şəraiti və əməkdaşları ilə tanış oldular. Təşkilat üçün yaradılmış şərait və veteranlara göstərilən diqqət və qayğıdan razı qaldılar. Daha sonra tədbir Təşkilatın akt azlında davam etdirildi.

Təşkilatın sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qonaqları salamladı. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları Təşkilatının sədri Dadaş Rzayevin salamlarını çatdırdı, onları Respublika Veteranlar Təşkilatında görməkdən məmnunluğunu ifadə etdi. Sərhəd Qoşunlarının Respublikamızın həyatındakı danılmaz rolundan danışdı.Təhlükəsizliyimizin təmin edilməsində sərhəd qoşunlarının müstəsna rolunu





vurğuladı. Cəlil Xəlilov həmçinin bildirdi: Sərhəd Qoşunları respublikamızda öz nizam intizamı ilə seçilir. Sərhəd Qoşunlarının veteranları müstəqilliyin ilk illərindən xalqımız və dövlətimizin təhlükəsizliyinin təmin etməyi məharətlə bacarmışdır. Qoşunların şəxsi heyəti sərhədlərimizi etibarlı təmin etməyi bacarmışdır”. Daha sonra Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Təşkilatının Təşkilati və analitik şöbəsinin mudiri Lətif Babayev və Gənclərin hərbi vətənpərvərlik şöbəsinin mudiri Adil Haqverdiyev söz alaraq, Dövlət Sərhəd Xidmətinin fəaliyyətindən və ölkəmiz üçün əhəmiyyətindən söz açdılar.



Daha sonra sərhəd qoşunlarının veteranları e.o. general- mayor Abbasəli Novruzov, e.o. general-leytenant İnayət Xəlilov, e.o. polkovnik Nizami Qədirov, e.o. polkovnik Cahangir Qulamov, e.o. polkovnik Sucəddin Abdullayev, e.o. polkovnik Kərim Zamanov, e.o. polkovnik Yunis Şirinov, e.o. general-mayor İsgəndər



Allahverdiyev, e.o. polkovnik Arif Əliyarov, e.o. polkovnik Rasim Canməmmədov Veteran Həmrəyli və təşkilatın təsis etdiyi yubiley medalları ilə təltif edildilər.

E.o. polkovnik Arif Əliyarov qonaqlar adından Republika Veteranlar Təşkilatının kollektivinə minnətdarlıqlarını bildirdi, təşkilatının fəaliyyətində uğurlar, yeni nailiyyətlər arzuladı və əməkdaşlığın davamlı olacağına ümidini vurğuladı.

# II Dünya müharibəsi veteranı Hacı Ağayevin 90 illik yubileyi təntənə ilə qeyd edilmişdir

*Hacı Firidun oğlu Ağayev 1926-cı ildə İrəvan Xanlığının Göyçə mahalında anadan olmuşdur. II Dünya müharibəsi başlayana qədər doğulduğu tarixi Azərbaycan torpaqları olan Göyçə mahalında yaşamışdır.*

Müharibənin ilk illərində arxa cəbhədə əməklə məşğul olmuş, döyüşən ordunun maddi təminatının yaxşılaşdırılması üçün həmvətənləri ilə birgə çalışmışdır. 1944 - cü ildə müharibəyə çağrılmış, I Ukranya ordusunun tərkibində döyüşmüşdür. Odessa və Kiyev şəhərlərinin işğaldan azad edilməsində iştirak etmişdir. Müharibə başa çatdıqdan sonra vətənə qayıtmışdır.



Ermənistan SSR-dan azərbaycanlıların deportasiyasına məruz qalmış, öz ata-baba torpaqlarından köçürülmüşdürlər. Hacı kişi Şamaxı şəhərinə gəlmiş və Mədrəsə kəndində ailəsi birgə yaşamışdır. Qeyd edək ki Hacı kişi hal-hazırda da Mədrəsə kəndində yaşayır.

Hacı Ağayev Şamaxı rayonunun eləcə də, Respublikamızın sayılıb seçilən veteranlarındandır. O, müharibədən sonra əmək fəaliyyəti ilə məşğul olmuşdur. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyyəsində Hacı kişi ömrünün bu yaşında da məşğul olur. O, daim gənc nəslə nümunə göstərilir və gənclərə həmişə dəyərli məsləhətlər verir.

İyul ayının 16-da Hacı kişinin 90 yaşı tamam olmuşdur. Onun 90 illik yubileyi Şamaxı rayonun Mədrəsə kəndində qeyd edilmişdir. Respublika Veteranlar Təşkilatından yubliyarı təbrik etmək üçün ehtiyatda olan polkovnik Kamal Əliyev, ehtiyatda olan polkovnik Adil Haqverdiyev iştirak etmişdirlər. Onlar öncə Hacı Ağayevi təbrik etmiş ona can sağlığı arzulamışdırlar. Respublika Veteranlar Təşkilatının sədri e.o. general-mayor Dadaş Rzayevin və təşkilatın digər əməkdaşlarının salamlarını və təbrikini çatdırmışlar. Respublika Veteranlar Təşkilatının Rəyasət heyətinin qərarı ilə təltif edilmiş “Veteran həmrəyliyi” medalı yubliyara verilmişdir. Həmçinin Hacı Ağayevə Respublika Veteranlar Təşkilatının Fəxri Fərmanı və hədiyyələri də təqdim edilmişdir.

Tədbirdə həmçinin Şamaxı Rayon İcra Hakimiyyətinin Humanitar şöbəsinin müdiri İsmayıl müəllim və Şamaxı Rayon Veteranlar Təşkilatının sədri Ağarza Bayramov iştirak etmişlər. Onlar da öz növbəsində yubliyarı təbrik edib, hədiyyələr vermişlər.

II Dünya Müharibəsi veteranı Hacı Ağayev də öz növbəsində ona və bütün veteranlara göstərilən xüsusi diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə təşəkkürünü bildirdi. O hər kəsə tədbirdə iştirak etdiyi üçün minnətdarlığını bildirdi. Qonaqları Mədrəsə kəndində salamlamaqdan məmnun olduğunu söylədi.

**Adil Haqverdiyev**
**Respublika Veteranlar Təşkilatının şöbə müdiri**

# Milli Mətbuat Gününə sanballı hədiyyə




Yazıçı Sona Vəliyevanın Milli Mətbuatın banisi Həsən bəy Zərdabinin həyatından bəhs edən "İşığa gedən yol" romanı bu yaxınlarda işıq üzü görüb .Yazıçı Sona Vəliyevanın Azərbaycan Milli Mətbuatının banisi, "Əkinçi" qəzetinin baş redaktoru Həsən bəy Zərdabinin həyatından bəhs edən "İşığa gedən yol" romanı barədə təəssüratlarını bölüşən Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid əsəri 22 iyul - Milli Mətbuat Gününə sanballı hədiyyə adlandırıb:

"Sona xanımın bu romanını Mətbuat Günü ərəfəsində, çox böyük zövq ala-ala oxumağa başladım. Romanda Azərbaycan Milli Mətbuatının banisi Həsən bəy Zərdabinin Zərdabda keçirdiyi uşaqlığından, Şamaxı, Tiflis və Moskvada təhsil aldığı illərdən başlayaraq keçdiyi uzun, keşməkeşli həyat yolu əks olunur. Əsərdə Həsən bəy Zərdabinin Moskva Dövlət Universitetini bitirəndən sonra Tiflis və Bakıda məmur, Qubada isə müəllim kimi fəaliyyət göstərməsi təsvir edilir. Realnı Gimnaziyada dərs dediyi vaxtlarda Həsən bəyin Azərbaycanda ilk dəfə kasıb ailələrin uşaqlarının təhsilə cəlb olunması üçün Xeyriyyə Cəmiyyəti yaratmaq niyyəti ilə müxtəlif bölgələrə - Şamaxı, Gəncə, Tiflis, İrəvan və Naxçıvana səfərlərindən bəhs edilir. Müəllif Həsən bəyin bu səfərlərini işıqlandırarkən həm adıçəkilən bölgələrin tarixinə dair qiymətli informasiyaları oxucuların diqqətinə çatdırır, həm də həmin dövrün ziyalıları, nüfuzlu, imkanlı şəxsləri barədə dolğun təəssürat yaradır. Həsən bəy Zərdabinin dostluq etdiyi o dövrün görkəmli ziyalıları - Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani və digər tanınmış insanlar, eləcə də öz tələbələri - Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqaları ilə apardığı fikir mübadilələrində maarifçilik ideyalarının ilk qığılcımlarının necə yaranması da romanda öz əksini tapır. Bundan başqa, əsərdə həmin dövrün olayları, ziyalı mühiti, həmçinin ilk Azərbaycan qəzetinin yaranması ideyası və bu ideyanın gerçəkləşdirilməsi prosesi də peşəkarlıqla əks olunub. Əsər bədii cəhətdən də mükəmməldir, oxunaqlıdır. Müəllif yazıçı priyomlarından ustalıqla istifadə edərək oxucunu həyəcanda saxlaya bilir. Hesab edirəm ki, bu roman Milli Mətbuat Gününə gözəl bir hədiyyədir".

R.Məcid onu da bildirib ki, bu əsər barədə qısa müddətdə baş redaktoru olduğu "525-ci qəzet"də tanınmış alim və ədəbiyyatşünasların yazıları dərc edilib: "Cahangir Məmmədli, Vaqif Yusifli, Flora Xəlilzadə kimi tanınmış ziyalılar bu əsər barədə geniş yazılar yazaraq ürək sözlərini deyiblər. Hesab edirəm ki, bu roman gələcəkdə Həsən bəy Zərdabi barədə bədii filmin çəkilməsi üçün yaxşı bir materialdır. Təkcə ziyalılar, mətbuat adamları üçün yox, ən müxtəlif səviyyəli oxucu kütləsi, xüsusi ilə gənclər üçün ibrətamiz, sanballı bir əsər yaratdığına görə müəllifi təbrik edirəm".

***Milli.Az***

# 22 iyul Azərbaycanda Milli Mətbuat Günüdür

22 iyul Azərbaycanda Milli Mətbuat Günüdür. Mətbuatımızın banisi Həsən bəy Zərdabi 1875-ci il iyulun 22-də Bakıda ana dilində «Əkinçi» qəzetinin ilk sayını nəşr etdirib. Beləliklə də, Mətbuat bayramımızın məhz bu gün qeyd olunması Azərbaycan xalqının ilk mətbu orqanı olan «Əkinçi» qəzetinin nəşr olunduğu tarixinə əsaslanır. "Əkinçi" qəzetinin nəşri böyük əks-səda doğurur. 1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş "Əkinçinin" mütərəqqi ideyaları Rusiya hakim dairələrini narahat edir və iki il sonra qəzet bağlanır. Qəzetin təəssüf ki, cəmi 56 nömrəsi işıq üzü görür. Bununla da, Azərbaycan mətbuatının ilk müjdəçisi"Əkinçi" qəzeti oldu.



Azərbaycanımız öz müstəqilliyini, suverenliyini bərpa etdikdən sonra milli-mənəvi dəyərlərə qayıdış bütün sahələrdə olduğu kimi mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan - qəzet və jurnal fəaliyyət göstərir. Bildiyimiz kimi, Jurnalistika-mətbuat , radio və televiziyanın cəmiyyətdəki mövqeyi, funksiya və prinsiplərini, jurnalist fəaliyyətinin forma və metodları haqqında elmdir. Mətbuat isə öz növbəsində kitab, məcmuə və s. çap edən istehsalat sahəsi, nəşriyyat və mətbəə işidir. Milli mətbuatımız daima tolerantlıq ideyalarının və milli məfkurənin daşıyıcısı olub.

Və bu gün fəaliyyətdə olan mətbu orqnları bu ənənəni davam etdirir, jurnalist peşəsini layiqincə inkişaf etdirirlər.

Dövlət ölkəmizdə mətbuatın inkişafı üçün müstəsna şərait yaratmışdır. Belə ki, Azərbaycanda Mətbuat Şurası fəaliyyət göstərir, "Mətbuat haqqında" Qanun qəbul edilib, Azərbaycan Respublikası söz azdlığı, mətbuat və jurnalistikaya dair bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulub.

Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu də imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradıldı. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir.

Hal- hazırda Respublikamızda çoxlu sayda qəzet və jurnallar dərc olunur, internet qəzetçilik inkişaf edir, bloglar yaradılır. Çox sayda mətbuat orqanı, agentliklər, saytlar, tele-radio şirkətləri fəaliyyət göstərir. O cümlədən, jurnalistlərimiz beynəlxalq peşə artımı kurslarına treninqlərə və təkmilləşmə kurslarına göndərilirlər. Ölkəmizdə möhkəm mətbuat və informasiya sistemi yaradılmışdır. Mətbuatın inkişafI ilə bağlı bütün məsələlər daim dövlətin diqqət mərkəzindədir.

Yarandığı 141 il ərzində Azərbaycan milli mətbuatı zəngin bir inkişaf yolu keçmişdir və keçməkdədir. "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Bayramınız mübarək, əziz jurnalistlər! Milli mətbuatımızın daima çiçəklənməsi və həmişə xoş mujdələr paylaşması diləyi ilə...

***Səidə Abdullayeva***



AZƏRBAYCAN VETERANI

# İsmayıl Əli oğlu İbrahimov

Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Respublikanın tanınmış alimi və ictimai xadimi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyətinin üzvü, Əməkdar Elm Xadimi, texnika elmləri doktoru, professor İsmayıl Əli oğlu İbrahimov 2016-cı il iyulun 16-da ömrünün 101-ci ilində vəfat etmişdir.

İsmayıl İbrahimov 1915-ci il dekabr ayının 31-də Azərbaycanın Ordubad şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1930-1935-ci illərdə Bakı şəhərində Sənaye Politexnik Texnikumunun mexanika fakültəsində oxumuş, 1935-1941-ci illərdə isə Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsində ali təhsil almışdır.

1941-ci ildə Azərbaycan Baş Energetika İdarəsində əmək fəaliyyətinə böyük mühəndis olaraq başlayan İsmayıl İbrahimov elə həmin il ordu sıralarına çağırılaraq 1942-ci ilədək Budyonnı adına Hərbi-Elektrotexniki Rabitə Akademiyasında təhsil almışdır. O, döyüşən ordu sıralarına göndərilmiş və cəbhədə bacarıqlı hərbi mütəxəssis kimi fərqlənərək batalyon komandirliyinə qədər yüksəlmişdir.

İsmayıl İbrahimov İkinci Dünya müharibəsindən qayıtdıqdan sonra 1946-1988-ci illərdə Azərbaycan Sənaye İnstitutunda baş laborant, assistent, baş müəllim, dosent, professor və kafedra müdiri işləmişdir. O, 1960-1970-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun rektoru vəzifəsini tutmuşdur. 1970-ci ildə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən İsmayıl İbrahimov 1978-ci ildə yenidən Azərbaycan Neft və Kimya İnstitutunun rektoru təyin olunmuş və 1988-ci ilədək həmin vəzifədə çalışmışdır. O, 1997-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.



Akademik İsmayıl 140-dan artıq elmi əsərin, o cümlədən 20-dək monoqrafiyanın, elmi-metodiki vəsait və dərsliklərin müəllifi idi. Alimin rəhbərliyi altında 40-dan çox fəlsəfə və elmlər doktorları hazırlanmışdır. O, bir sıra mötəbər beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları ilə ölkə elmini layiqincə təmsil etmişdir.

İsmayıl İbrahimovun ictimai fəaliyyəti də zəngin və təqdirəlayiqdir. O, bir neçə çağırış Azərbaycan və SSRİ Ali Sovetinin deputatı seçilmiş, uzun müddət Azərbaycan Uşaq Fondunun İdarə Heyətinin sədri, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyətinin üzvü olmuşdur. Onun həyatı və fəaliyyəti gənc nəslin hərbi vətənpərvərlik, Vətənə, xalqa sədaqət ruhunda tərbiyə olunmasında mötəbər nümunə idi.

Alimin fədakar əməyi yüksək qiymətləndirilmişdir. O, müxtəlif orden və medallar almış, müstəqil Azərbaycan Respublikasının ali təltiflərindən olan "Şərəf" ordeninə layiq görülmüşdür.

Tanınmış ictimai xadim, alim və pedaqoq İsmayıl Əli oğlu İbrahimovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır. Allah rəhmət eləsin!

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti*

# Görkəmli alim, II Dünya müharibəsi iştirakçısı İsmayıl İbrahimov son mənzilə yola salınıb

***Respublikanın tanınmış alimi və ictimai xadimi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, "Şərəf" ordenli, Əməkdar Elm Xadimi, texnika elmləri doktoru, professor İsmayıl İbrahimov iyulun 16-da ikinci Fəxri xiyabanda dəfn edilib.***

Vİda mərasimində Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) rəyasət heyətinin üzvləri, respublikanın tanınmış elm adamları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev görkəmli alimin səmərəli elmi fəaliyyətindən, Azərbaycanda kibernetika, idarəetmə sistemləri, avtomatlaşdırma və informasiya texnologiyalarının inkişafında mühüm xidmətlərindən danışıb. Bildirilib ki, İ.İbrahimovun simasında Azərbaycan elmi və təhsili böyük alimi itirib. Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsində ali təhsil alan İ.İbrahimov ölkəmizdə informatika və kibernetikanın əsasını qoyub. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun və indiki İdarəetmə Sistemləri İnstitutunun yaradılmasında, bir sıra sənaye obyektlərinin, vizual mərkəzlərin açılmasında alimin çox böyük əməyi olub. O, müasir dövrdə respublikamızda informatika və kibernetika sahələrinin yüksək səviyyədə inkişafında mühüm xidmətlər göstərib.




AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev İ.İbrahimovun həyatından, Azərbaycan elminin inkişafına verdiyi töhfələrdən söz açıb. Qeyd edilib ki, 1930-cu illərin əvvəllərində ilk dəfə informatika peşəsi üzrə təhsil alan İ.İbrahimovun bu sahənin inkişafında əvəzsiz xidmətləri olub. Azərbaycanda informatika sahəsinin banisi olan alim, eyni zamanda, respublikamızda təhsilin inkişafına böyük töhfələr verib. Azərbaycanın ilk informatiki olan İ.İbrahimov indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əsasını qoyanlardan biridir. Ölkəmizdə neftçi kadrların hazırlanmasında böyük xidmətlər göstərmiş alimin tələbələri bu gün respublikamızda və xarici ölkələrdə fəaliyyətlərini uğurla davam etdirirlər. O, alim, təşkilatçı, pedaqoq, ictimai xadim kimi ömrünü öz xalqına həsr edib. İ.İbrahimov 1970-ci ildə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb. Bu gün ölkəmizdə elektronika, radiotexnika, telekommunikasiya sahəsində fəaliyyət göstərən zavodların, elmi müəssisələrin yaradılmasında onun böyük xidmətləri olub.



Alimin elmi və ictimai fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Akademik İ.İbrahimov ümummilli lider Heydər Əliyev tərəfindən yüksək mükafatlara layiq görülüb, keçmiş SSRİ zamanında Sosialist Əməyi Qəhrəmanı fəxri adını alıb. O, elmi fəaliyyətini ömrünün sonunadək AMEA-da davam etdirib. Yüksək insani keyfiyyətlərə malik akademikin həyat yolu gənc nəsil üçün örnəkdir. Alimin əziz xatirəsi, zəngin elmi irsi daim yaşayacaq, xalqımıza, elmimizə xidmət edəcək, nəsillərdən-nəsillərə ötürüləcək.

# Помним и гордимся

***Продолжение... Начало в предыдущем номере (14.07.2016)***

"С лейкой и блокнотом" - о заслуженном журналисте фотокорреспонденте Соломоне Кулишове, "Память сердца сына полка" - о музыканте Ниязе Керимове, ставшим известным человеком в нашей республике, автором научных книг и очерков, посвященных жизни и творчеству его коллег, участников Великой Отечественной войны. Полагаю, что деятельность ветеранов в этой области заслуживает всяческого одобрения. Волнующим вопросом в деятельности нашей организации является Нагорно- Карабахская проблема. Ответом на ее решение являются слова Президента Азербайджана Ильхама Алиева на встрече группы молодежи, добившихся успехов в различных областях и представителей студенческих молодежных организаций в газете "Бакинский рабочий" 23 апреля 2011 года он сказал: "не сомневаюсь в том, что мы восстановим нашу территориальную целостность. Для этого у нас два пути - либо военный путь, либо мирный. Пока мы отдаем предпочтение мирному пути, так как надеемся, что вопрос найдет решение этим путем. Если предложения, находящиеся сегодня на столе переговоров, будут приняты армянами, то вопрос постепенно начнет решаться поэтапным путем. Наша позиция всегда заключалась в том, что данный вопрос должен найти лишь поэтапное решение. В этом случае после того, как граждане Азербайджана вернуться на оккупированные в настоящее время земли, и мы восстановим там все города, вопрос, считаю, найдет справедливое решение". В этих ответах ветераны находят ключ к решению армяно-азербайджанского конфликта и решительно выступают на различных международных форумах в справедливом решении этой весьма затянувшейся проблемы.Особое внимание хочу уделить роли наследия Общенационального лидера Азербайджана Гейдара Алиева.

Существует множество факторов, влияющих на развитие и укрепление нашего независимого государства. Среди них ни с чем не сравнимая, самая актуальная - сфера воспитания, особенно молодежи и подростков, на основе национальной духовности. Вся жизнь и общественно-политическая деятельность Гейдара Алиева-великой личности, живой истории и зеркала своей эпохи - настоящая школа воспитания. Именно он принес в наш лексикон понятие национального патриотизма - основного компонента, составной части национального воспитания и, таким образом, определил смысл, направление новой национальной идеологии - идеологии азербайджанства. Стала хорошей традицией в школах, высших учебных заведениях, предприятиях, войсковых частях проводить. В школах проходят уроки Гейдара Алиева. Это, прежде всего, уроки гражданства, патриотизма. Потому, что его имя непрерывно связано с прогрессом нашей республики. Каждый миг своей жизни посвящен счастливому будущему своего народа.

Мечта Гейдара Алиева - привить молодежи, утвердить в ее сознании любовь к Родине, сравнимую лишь со святым чувством любви к матери. Ибо какие бы вершины ни покорил человек, каких бы он высот ни достиг, точка опоры для него - родная земля. Первые представления человека, его мировоззрение формируются на этой земле, Азербайджанская ветеранская организация придавала и придает огромное значение пропаганде наследия великого лидера Азербайджана Гейдара Алиева. И эта работа очень особенно актуальна и она была проведена с большим подъемом в связи с тем, что 10 мая 2013 года исполнилось 90 лет со дня рождения общенационального лидера Азербайджана Гейдара Алиевича Алиева. Воспитание - сложный и продолжительный процесс. Его невозможно вести примитивным нравоучением, искусственно созданными запретами или, наоборот, безудержным восхвалением чего-то. Ветераны войны постоянно уделяют особое внимание на воспитание для страны морально стойкого, образованного, умственно зрелого гражданина, способного проводить в жизнь планетарную внутреннюю и внешнюю политику нашего общенационального лидера Гейдара Алиева и Президента Ильхама Алиева, готовых в XXЫ веке выполнить возложенные на них обязанности. Проблемы в патриотическом и интернациональном воспитании, а также в укрепление дружб между народами, занимают важное место.



Мне очень приятно сообщить Вам, что 13-14 октября 2010 года на состоявшемся Пленуме Координационного Совета ветеранов Стран СНГ с содержательным докладом "О работе ветеранских организаций по укреплению дружбы и сотрудничества между народами Независимых государств" выступил ее председатель - Адмирал флота А.И.Сорокин. Немало теплых слов докладчик произнес в адрес нашей Республиканской Ветеранской Организации, а также в книге "Победа в сердце каждого" в частности, адмирал флота А.И.Сорокин сказал: "Мы уже неоднократно на наших Пленумах и Заседаниях Президиума отмечали большую и разноплановую работу по укреплению дружбы и сотрудничества между нашими народами, которую проводит ветеранская организация Азербайджана. Это хорошо показано в отчете ветеранской организации Республики о подготовке к празднованию Великой Победы, полученным нами перед заседанием Президиума".

Это безусловно, для нас очень высокая оценка и мы набранных темпов не сдадим, а наоборот, усилим эту важнейшую деятельность. Думаю, что это так и будет. Учитывая, что 22 июня 2016 года исполняется 75 лет со дня начала вероломного нападения фашистской Германии на Советский Союз. Учитывая это, мы уже начали проводить немало содержательных мероприятий. Положительные результаты в работе ветеранской Республиканской Организации стали возможны в результате напряженной деятельности всех ветеранов войны и труда военных лет. Благодаря напряженной работе ее ветеранов. В завершении своей статьи хотел бы еще раз с особой силой подчеркнуть, что Память о Героях Великой Отечественной и Карабахской войн - вечна! Спасибо тебе, Память! Как бы мы обеднели без тебя, скольких бы обидели таких, которые достойны того, чтобы о них никогда не забывали. Хорошо, если мы не будем забывать о них, тех, жизни которых оборвалась в расцветную пору.

Мы все у них в долгу. До последнего часа жизни нашей.

Будем же почаще тревожить живую память.

Помните, друзья, о судьбах героев Великой Отечественной войны 1941-1945 гг. Подумайте о своей судьбе.

*Без памяти жить нельзя.*

*Забвение губительно!*

*Живая память живет и побеждает!*

*Вечная слава и память павшим в боях за честь, свободу и независимость Отечества!*

**Председатель Ветеранской Организации Азербайджанской Республики генерал-майор в/о Дадаш Рзаев**

# Победа и Память

*В канун дня 71-й годовщины Победы в ОАО "Бакинская типография №3" вышла книга под названием "Победа и память", написанная ветераном Великой Отечественной войны, капитаном первого ранга в отставке, полным кавалером орденов и медалей, заслуженным работником культуры, пропагандистом республики, кавалером ордена "Шохрат", лауреатом премии "Золотое перо" Александром Александровичем Гритченко.*



Это солидный сборник, в который вошли официальные документы и речи общенационального лидера Гейдара Алиева, Президента Азербайджана Ильхама Алиева о Победе в Великой Отечественной войне, распоряжения Главы государства о награждении председателя организации ветеранов войны, труда и вооруженных сил Азербайджанской Республики Дадаша Гариб оглу Рзаева орденом "Шохрат", проведении 80-летнего юбилея генерала.

Сборник предваряет обращение к молодому поколению независимого Азербайджана "Гордимся и помним ветеранов", написанное главой ветеранской организации Д.Рзаевым. Война унесла 27 миллионов жизней советских людей, кроме того миллионы раненых, контуженных и обмороженных. Автор обширного обращения призывает молодых граждан чтить память азербайджанцев, принявших смерть и муку в годы войны, воздать должное всем тем, кто остался верен присяге. "Не забудем тех, кто безымянно покоится в братских могилах, кто без вести, но не без чести пропал на перепутьях войны. Вспомним о тех, о ком молчали долгие десятилетия, кто беззаконно был лишен прав, заключен в лагеря. Оклеветанные, без вины осужденные, подконвойные люди тоже вносили вклад в Победу - добывая уголь Воркуты, лес Сибири, руду и золото Магадана".

В этом призыве большая боль и страдания миллионов людей, перенесших тяжелые тяготы военных лет как на передовой линии фронта, так и в глубоком тылу, который обеспечивал фронт военной техникой, танками, самолетами, снарядами, обмундированием, нефтью, горюче-смазочными материалами, теплой одеждой и продуктами питания. Все делалось для фронта и во имя Великой Победы.

Новая книга известного военного журналиста капитана первого ранга, ветерана войны Александра Гритченко "Победа и память", написанная им в преклонном возрасте, встречена читателями Азербайджана с большим интересом и вниманием. На мой взгляд, это не просто писательский труд, это великий подвиг человека, прошедшего все годы войны от начала до победного конца. Между боями он писал военные заметки и зарисовки о тяжелых боях, воинском подвиге матросов и командиров Азовской, Дунайской, Черноморской флотилий, куда он попал после призыва в армию и публиковал в военных газетах на фронте.

В книгу вошли официальные документы, интервью, обращение азербайджанского народа к бойцам и командирам, опубликованное в газете "Правда" 1943 г, речь президента России Владимира Путина на юбилейном параде Победы 9 мая 2015 года в Москве, статья "Азербайджан в годы войны цифры и факты".

Привлекает внимание материал о национальных стрелковых дивизиях в Великой Отечественной войне 1941-1945 гг, подготовленный А.Гритченко. В нем подробно рассказывается о боевом пути 77-й Симферопольской дивизии, 223-й Белградской азербайджанской, 402 стрелковой дивизии, 416 Таганрогской дивизии, Каспийской флотилии. Затем автор подробно рассказывает о каждой дивизии подробно. Об основных уроках Великой Отечественной войны автор трогательно рассказывает в статье "Война прошла через сердце каждого человека". Здесь он приводит сведения о разрушенных городах и деревнях, десятках тысяч заводов и фабрик, около ста тысяч разграбленых колхозов. Стоимость разрушений в СССР составила почти половину от общей суммы разрушений во всех странах мира, следует учесть потери в войне с Японией. В очерке "Бесстрашный сын азербайджанского народа" рассказывается о ратных подвигах дважды Героя Советского Союза Ази Ахадовиче Асланове, прошедшем боевой путь от Крыма, Москвы, Ста-линграда до Днепра. Сокрушительные удары его танков не раз громили укрепления фашистской обороны в боях за Белоруссию, Прибалтику. Он олицетворял собой героический дух азербайджанского народа. В очерке приводятся документы о наградах родины. Это два ордена Ленина, две "Золотые Звезды" Героя Советского Союза, три ордена Красного Знамени, орденами Суворова II степени, Александра Невского, двумя орденами Красной Звезды, орденом Отечественной войны I степени, медалями "За отвагу", за оборону Сталинграда, Москвы, Кавказа, получил огромное количество благодарностей от Верховного Главнокомандующего.



С большой душевной теплотой ветеран рассказывает о подвигах Героев Советского Союза Исрафила Мамедова, Зии Буниятова, Мелика Магеррамова и других храбрых воинов Азербайджана. "3 декабря 1941 года во главе группы бойцов из 20 человек Исрафил Мамедов оборонял наблюдательный пункт командира роты, и его бойцы отбили четыре атаки гитлеровцев, превосходивших в живой силе и в вооружении, вступили в рукопашный бой и удержали позиции, - рассказывается в книге.

Накануне этого боя его назначили заместителем командира роты и присвоили звание младшего лейтенанта. Высокого звания Героя Советского Союза Исрафил Мамедов был удостоен 11 декабря 1941 года. Столь высокой награды родины он был удостоен первым среди азербайджанских воинов. С 1943 года лейтенант И.Мамедов - в запасе по болезни, жил в Гяндже, награжден орденом Ленина, медалями, умер 1 мая 1946 года. После себя оставил воспоминания о сражениях с немецкими захватчиками.

Зия Мусаевич Буниятов в канун войны с отличием окончил Бакинское военное пехотное училище и получил назначение в Бессарабию. Первый бой принял 22 июня 1941 года недалеко от границы в маленьком городке Бендеры.

Он командовал ротой, когда ему был всего 22 года. Атаки гитлеровцев следовали одна за другой, но бойцы его роты не дрогнули, и немцы вынуждены были отступить. Командир полка заметил и оценил мужество и отвагу молодого воина. Когда на



позиции Красной Армии двинулись немецкие танки, командир полка вызвал к себе Буниятова и знаменщика и приказал любой ценой сохранить знамя полка. Много тяжелых испытаний пережили Буниятов и знаменщик при выходе из ок-ружения. Но ни голод, ни смертельная усталость, ни раны, полученные в боях, не сломили волю бойцов. Когда они вышли на передовые позиции

Красной Армии, Буниятов расстегнул китель, достал Знамя полка и передал его командиру части.

Летом 1942 года Буниятов участвовал в героической обороне Кавказа. Однажды его бойцы встретились с десятью вражескими танками, которые забросали гранатами и бутылками с зажигательной смесью. Половина танков была уничтожена, остальные вернулись обратно на свои позиции. Пять дней бойцы Буниятова стойко обороняли рубеж.

Потом он получил другое задание: форсировать реку, занять плацдарм на противоположном берегу и удержать его, пока воины не наведут переправу. И с этим заданием З.Буниятов справился с честью. Он дошел до Берлина и оставил на Рейхстаге свой автограф. Поэт воспел это так:

*"Расписалась рота на рейхстаге по-азербайджански и по-русски".*

Ратный подвиг капитана был удостоен высокой награды, ему присвоили звание Героя Советского Союза.

С большой любовью автор пишет о воинских подвигах летчика Мазаира Абасова, человека легендарной судьбы. Выполняя боевое задание по бомбардировке вражеской базы в Констанце, он был атакован двумя вражескими истребителями. При поврежденном моторе летчик вступил в бой и сбил один самолет противника, а когда оба мотора вышли из строя, мастерски произвел посадку на воду. Шесть суток боевой экипаж, борясь с водной стихией, добирался до своих берегов. За этот бой М.Абасов был награжден орденом Красного Знамени. Однажды его бомбардировщик был подбит в бою, но Мазахир сумел посадить горящий самолет, получив при этом тяжелые ожоги. В военном госпитале лучшие медики боролись за его жизнь. Он выжил, стал ученым, профессором, писателем общественным деятелем. В годы независимости Президент Азербайджана Гейдар Алиев наградил его орденом "Шохрат" ("Слава").

Листаю книгу, и передо мною встают образы легендарной Катюши Михайловны, гвардии полковника А.Ф.Везирова, Ширина Шукюрова, Мусеиба Багирова, летчика Бориса Литвинчука родом из города Кази-Магомед Азербайджана, Джалала Шукюр оглу Алескерова, служившего медиком на Северном флоте, бесстраш-




ного воина Али Бабаева, Рахмана Мамед оглу Хатамова, Кафура Мамедова, спасшего жизнь своему командиру и многие других сыновей и дочерей Азербайджана.

В книге помещены очерки и рассказы о героизме азербайджанских женщин. Среди них "Большая судьба летчицы" о Зулейхе Сеидмамедовой, "Дочь моря" о Шовкет Салимовой, водившей свой корабль к Сталинграду, "Подвиги женщин-патриоток" о Маргарите Всеволодовне Кравцовой, о блокаднице Ирине Кадымовой.

Книга проиллюстрирована редкими фронтовыми фотографиями, хорошо читаются произведения поэтов Александра Недогонова, Василия Лебедева-Кумача, Владимира Высоцкого, Расула Рзы, Бахтияра Вагабзаде, а также песни "День Победы" Николая Харитонова, "Седые ветераны" Нины Релиной, "Спасибо за то, что ты есть!" Л.Евтюхина. В конце книги дается хронология истории ветеранской организации Азербайджанской Республики.

Итак, я прочитал свыше 630 страниц новой книги Александра Гритченко "Победа и память". Надо сказать, что это объемный труд, и осилил его военный журналист в почтенном возрасте. Ему уже давно пора отдыхать, но он не знает покоя. На помощь приходит его верная подруга Роза ханум, которая не только заботится о его здоровье, но еще помогает в творчестве. Александр Александрович диктовал ей многие материалы, которые легли в основу этой книги.

Александр Гритченко с 1953 года в Баку, служил в Краснознаменной Каспийской флотилии, а в годы хрущевской военной реформы ушел в запас. С 1961 года трудится в ветеранской организации, внес большой вклад в дело по распространению передового опыта, сбору материалов музея войны в Москве на Поклонной горе, является автором более 50 больших и малых книг, брошюр, плакатов о героическом подвиге сынов и дочерей Азербайджана в годы Великой Отечественной Войны. Вот уже более 63 лет А.Гритченко живет в Баку, с которым навсегда связал свою судьбу. Является блестящим пропагандистом героико-патриотической роботы Совета ветеранов Республики, часто встречается с молодежью, проводит уроки мужества, кон курсы на лучшее сочинение о героях войны, рисунки, исполнение песен военных и после военных лет в школах Баку. А.Гритченко благодарен генерал-майору Дадашу Рзаеву за то, что он был инициатором написания этой книги, от начала работы и до выхода в свет поддерживал автора консультациями, а также полковнику Джалилу Халилову и директору издательства "Вэтэн" Шаддату Джафарову за консультации и прекрасное художественное оформление книги. Он также благодарен авторам, ряда очерков, которых привлек к работе над книгой.

**Зейтулла ДЖАББАРОВ**

AZƏRBAYCAN VETERANI

# Meyvə şirələri faydalıdır

Meyvə şirələrindən hazırlanan içkilərin tərkibində sağlamlıq üçün lazımi mineral və vitaminlər var. Xüsusi ilə vitaminlər təsirli olan qida əlavələrindən biridir.

C vitaminli içkilər və portağal suyu sağlamlığa faydası olan xörəklərlə birlikdə istifadə etdikdə bədənə yaxşı təsir göstərir. Maddələr mübadiləsinə kömək edir.

Onuda qeyd etmək lazımdır ki, meyvə içkilərində dəmir, B12 vitamini və sink maddələri var. Bu istiqamətdə portağal suyu da əhəmiyyətlidir.

Bəzi xörəklərə amin turşulardan (tirozin və triptofan maddələrindən) hazırlanan və maddələr mübadiləsini sürətləndirən C vitamini lazımdır.

Qırmızı ət, portağal suyu kimi C vitamini baxımından zəngin içkilər ilə



birlikdə qəbul edildiyində ətdə olan faydalı qida elementlərinin bədəndə istifadəsi artır.

Ona görə sağlamlıq üçün lazımi prosedurları nəzərə alınmaq və istəyə uyğun gündə 1 istəkan sağlamlığa faydalı hesab olunan təbii meyvə içkilərindən istifadə etmək lazımdır.

# Qoz fındıq ürək xəstəliyi riskini azaltmağa təsirlidir

Hollandiyada keçirilən tədqiqata əsasən gündə bir ovuc qoz-fındıq yemək ürək xəstəliklərinin qarşısının alınmasına kömək edə bilər.

Araşdırma müəllifləri hesab edirlər ki, buna səbəb yer fındığı və başqa növ çərəzlər antioksidant, lif, vitamin və minerallarla zəngin olmasıdır.

Hərçənd ki, araxisdən hazırlanan yağ həmin effektə malik deyil.

Maastrixt Universitetində edilən tədqiqata görə gündə ən az 10 qram fındıq, fıstıq, qoz ya da badam yemək, erkən ölüm riskini yüzdə 23 nisbətində azaldır.

Tərkibində çox faydalı E vitaminin olmasına görə qoz-fındıq yaddaşı və əqli fəaliyyəti yaxşılaşdırmağa təsirlidir.

Qoz, fındıq, badam, araxis qan-damar sistemi üçün də faydalıdır.



# Limonlu su

Bu eliksiri hazırlamaq üçün 250 qram ılıq qaynadılmış suyun üzərinə limonun dörddə bir hissəsinin şirəsini əlavə etmək yetərlidir. Bununla da sağlamlıq üçün bir çox faydaları olan limonlu su hazırdır. Nəzərə alınmalıdır ki, limon şirəsi soyuq suya deyil, məhz ılıq suya əlavə olunmalıdır və istifadə öncəsi hazırlanmalıdır.

Bəs ilk baxışdan çox adi görünən limonlu suyun qeyri-adiliyi nədədir, onun orqanizmə hansı faydaları var?

1. Limonlu su orqanizmin immun sistemini gücləndirir.

2. Beyinin fəaliyyətinə və sinir sistemınə müsbət təsir göstərir.

3. Limonlu sudan istifadə etməklə artıq çəkidən azad olmaq mümkündür. Belə ki, limon şirəsinin tərkibində olan pektin aclıq hissinə qarşı effektli mübarizə aparmaq xüsusiyyətinə malikdir.

4. Bu maye həzm prosesini normallaşdırır.

5. Limonlu su sidikqovucu xassəyə malikdir. Elə bu səbəbdən də o orqanizmdə olan zərərli maddələrin xaric olunmasına kömək edir.

6. Müntəzəm olaraq limonlu sudan istifadə edərkən üz dərisinin rəngi açılır, daha sağlam görkəm alır.

7. Yüksək qan təzyiqindən şikayətlənənlər üçün limonlu su olduqca xeyirlidir.

8. Limonlu suyun faydalarından biri də odur ki, o qaraciyərin təmizlənməsi üçün ən yaxşı vasitələrdən biridir.

9. Ürək damar xəstəliklərinin profilaktikası üçün limonlu su xeyirlidir.

10. Limonlu su təbii və güclü antioksidantdır.

Limonlu suyun faydalarından bəhrələnmək üçün onu səhərlər acqarnına boş mədəyə içmək lazımdır və istifadə zamanı hazırlanmalıdır. Diqqətdə saxlamaq vacibdir ki, bir stəkan ılıq suya limonun yalnız dörddə bir hissəsinin şirəsi əlavə olunmalıdır. Onu içdikdən yarım saat sonra səhər yeməyinin yeyilməsi vacibdir. Limon suyu gün ərzində insanın əhvalına da müsbət təsir göstərir və bütün daxili orqanların fəaliyyətini normallaşdırır. Soyuq havalarda, qış fəslində hazırladığınız limonlu suya bir çay qaşığı bal da əlavə edə bilərsiniz.

Mədə xorası və qastrit xəstəlikləri olanların limonlu sudan istifadəsi məqbul sayılmır.

Səhərlərininzi limonlu su ilə açın. Bu işə sərf etdiyiniz 2 dəqiqə vaxt sizə daha uzun və sağlam illər bəxş edəcək.



# Ənginarın faydaları

Ənginar yumruq şəklində çiçəkləri olan və boyu 1,5 metrə qədər uzanan bitkidir. A və C vitaminləri, kalsium, kalium, dəmir, manqan və fosfor mineralları baxımından olduqca zəngindir.

Ənginar qaraciyərin müalicəsində istifadə olunan təbii vasitələrdən biridir. O qaraciyəri qoruyur və bu orqanda olan xəstəliklərin daha tez sağalmasını təmin edir.

Ənginar eyni zamanda böyrək və bağırsaqların nizamlı işləməsinə kömək edir və hətta böyrəkdə olan daşların düşməsinə yardım edir. Həzmi asanlaşdırır. Qandakı şəkər nisbətini nizamlayır, xolesterolu aşağı salır. Bədənin müqavimətini gücləndirir, zehni yorğunluğu aradan qaldırır. Qadınlarda döş vəzi, uşaqlıq ağızı, kişilərdə prostat xərçənginin qarşısını almaqda köməkçi vasitədir.

Ənginar ürəyi və damar sağlamlığını qorumaqda da təsirlidir. Hüceyrələrin erkən ölməsinin qarşısını alaraq yaşlanmanı ləngidir. Sarılıq və revmatizm xəstəliklərinə çox faydalıdır. İshalı kəsir, tər qoxusunu aradan qaldırır. Temperaturu aşağı salır, iştahı artırır.

Ənginar son dərəcə faydalı və qiymətli bir qidadır. Digər tərəvəzlərdən fərqli olaraq yüksək nisbətdə zülal və karbohidrat tərkiblidir. Vitamin və mineral baxımından da son dərəcə zəngindir



**Hörmətli oxucular!**

**“Azərbaycan Veteranı” qəzetinə abunə olmağınızı xahiş edirik.**

**Hesab nömrəsi: AZ33IBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 6AZN**
**1 illik abunə haqqı - 12 AZN**

**Qeyd: Əziz oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Respublika Veteranlar Təşkilatına və təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiz.**

**Əlaqə telefonları: (012 )440-21-08; (012)497-63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*